# Sülhməramlıların və BQXK-nin avtomobilləri aksiya ərazisindən maneəsiz keçiblər

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edir. Xankəndidən Laçın istiqamətində hərəkət edən Rusiya sülhməramlılarına məxsus dörd təminat, 13 təminat-təchizat, yeddi minik və bir yük avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb.

❖ ❖ ❖

Ekoaksiya iştirakçıları fevralın 4-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus yeddi minik və yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

***AZƏRTAC***








Azərbaycan.- 2023.- 5 fevral.- S.7.